Tədbirdə bir şəxs də vardı. Səssizliyinə çəkilib özünün müşahidə kamerasını zala tuşlayan, bu günə səbəbkarın özü qədər sevindiyi üzünün hər cizgisindən bəlli olan Ramiz Həsənoğlu. Dostunun şad gününə də bir neçə cümlə ilə qatıldı: "Yaxşı ki, sən mənim yanımdasan Ramiz. Var ol". Öz sözünü illər öncə və zamanında "Üç çinar yarpağı" telefilmi ilə söyləmiş Ramiz Həsənoğlu gedən illərin ardından boylanıb daha nə deyə bilərdi ki... İndi ona - "Azərbaycan poeziyasının Xan Çinarı"na baxıb qürrələnmək qalırdı yalnız. Çünki həmin tədbirdə sözlərin gücsüzlüyünü dərk edən azlardan idi Ramiz Həsənoğlu.

Yaxşı ki, Ramiz Rövşən şeirlərini söyləməyə başladı və bizi "məğlubiyyət" acısından xilas edib dadımıza yetdi sanki. Şeirlərin ovqatı, havası da fərqli idi. Ömür yolunun üç mərhələsinə işarət kimi səsləndi bu şeirlər. Uşaqlıq, gənclik və ahıllıq kimi. Amma ya təsadüfi, ya düşünülmüş olaraq, Ramiz Rövşənin ömrə işarə ilə səyahətə çıxan şeir trayektoriyasının əyrisi əksinə, bu gündən dünənə gediş elədi. Ömrün ahıl çağlarında qələmə aldığı, həzin və nisgil çalarına bürünmüş şeirlərlə başladı çıxışına: "Daha ömrümə də qaranlıq düşür/ Ürəkdə sonuncu ümid qaralır"; "Hayandasan, di gəl çıx, ay bu yükün yiyəsi!..". Daha sonra "Həyat filminin yarısında yuxuya gedib ömrün necə keçdiyindən xəbər tuta bilməyən", "Ramiz meşəsində azıb qalan" şairin "Məni ağac kimi silkələsələr/ Hər budağımdan bir ürək tökülər" misraları yaşanmış, yaşanılan ömrün hallalıq dərəcəsi kimi mənalandı. Daha "özündən gizlənməyə" ehtiyac duymurdu şair. Əksinə, zamanında gizlətdiyi, heç yerdə demədiyi mətnlərini də üzə çıxarmağa niyyətli idi. Çünki arxada "mən bu ömrü uduzdum" misralarını vurub keçən şərəfli bir ömür vardı. Ona görə şair sonda gənclik illərinin gizlininə - 18 yaşında imtahan və avqust istisinə aid yazdığı şerə döndü. Arada fürsət tapıb "Öz aramızdı, heç 18 yaşlı Ramiz Rövşən də pis yazmırdı", - deyə 70 yaşına "göz vurmağı" da unutmadı. "Ömür bundan sonra başlayır" nikbinliyi ilə yeni yaşının qarşısına qollarını geniş açaraq çıxdı. Şair və Tanrı münasibətlərinə toxundu: "İnsan üçün ən önəmlisi öz vicdanına, daxilindəki ilahi səsə olan münasibətidir". Amma bu münasibəti şairin şeirləri onun özündən daha yaxşı anladırdı: "Bütün yollarımı aldın əlimdən/Bütün yollarımın sonu sən oldun" etirafı ilə. Şairin səmimiyyətindən danışdı: "Şair üçün hər şeydən əvvəl özünə səmimiyyətlə yanaşması gəlir, bu, hətta oxucuya səmimiyyətindən də öndə dayanmalıdır". Burda da şeirlər irəli çıxıb müəllifindən daha istedadla çözdü məsələni: "Mən bir tozam, azadam göy üzündə/ Nə olsun ki, azad deyil, bir adam yer üzündə".

Hə... Görünür, tək məğlub biz olmadıq. Elə Ramiz Rövşənin özü də poeziyası qarşısında gücsüz qaldı.

* * *

Belə... Yazını bitirirəm. Sübh çağıdı. Son nöqtəni qoysam da, içimdəki şeirlərin havası məni özgə düşüncələrə dalmağa qoymur. Pəncərəyə sarı dönürəm. Havaya nəzər yetirəndə xatırladığım misralar üzümə xəfif bir təbəssüm qondurur:

*Qorxa-qorxa bu sübh çağı*
*Nə baxırsan göyə sən?*
*Deyirsən ki, günəş çıxıb,*
*Qar əriyir deyəsən.*

Və mən düşünürəm, Ramiz Rövşənin poeziya üfüqlərində qış günəşi kimi doğuluşu indən sonra başlayır.

**Ədəbiyyat.- 2016- cı il.- 17 dekabr.- S. 7.**